

# Azərbaycanın birlik, mənəvi bütövlük simvolu

# USTAD ŞƏHRİYAR

***Məhəmmədhüseyn Şəhriyar o taylı-bu taylı Azərbaycanın XX əsrdə yetirmiş olduğu ən görkəmli şairlərindəndir. Müdrik və məğrur təbiətli sənətkar mükəmməl əsərləri ilə hələ sağlığında klassiklər səviyyəsinə yüksəlmiş, anadilli poeziyamıza "Heydərbabaya salam" kimi sənətkarlıq baxımından son dərəcə mükəmməl və təkrarsız əsərlərindən birini töhfə vermişdir.***

Məhəmmədhüseyn Behcət Təbrizi Hacı Mirzəağa Xoşginabi oğlu 1906-cı ildə Təbriz şəhərində vəkil ailəsində anadan olmuşdur. Məhkəmədə vəkillik etməklə ailəsini dolandıran atası şeiri və musiqini çox sevən xeyirxah bir ziyalı idi. "Mənim atam süfrəli bir kişiydi, el əlindən tutmaq onun işiydi" deyərdi ustad Şəhriyar. Anası Kövkəb xanım da Azərbaycan şifahi xalq yaradıcılığından və klassik irsimizdən çox gözəl nümunələr bilən xanım olub. İstedadlı və ziyalı valideynlər şairin formalaşmasında böyük rol oynayıblar.




Ustadın uşaqlıq illəri təbiət qoynunda keçib. 1913-cü ildə atası Məhəmmədhüseyni təhsil almaq üçün Təbrizə gətirir və o burada ərəb ədəbiyyatını, fransız dilini və dini elmləri öyrənməyə başlayır. Şəhriyar təsviri incəsənətin bir növü olan kalliqrafiyanı (gözəl xətt) da yaxşı bilirdi. Daha sonra Tehrana gəldiyi ilk günlərdən Ustad Əbulhəsən Səba ilə tanış olur, sazda (setar) ifa etməyi öyrənir. 1920-ci ilin ortalarında istedadlı şair kimi tanınan Seyid Məhəmmədhüseyn Behcət Təbrizi özünə təxəllüs götürmək üçün Hafizin "Bəxtnamə" kitabını açır və bəxtinə "Şəhriyar" adı düşür. O vaxtdan da Məhəmmədhüseyn Şəhriyar kimi tanınır və qəbul olunur.

Şair 1924-cü ildə Tehranda Ali Tibb Universitetinə daxil olur. Tələbəlik illərində Sürəyya adlı bir qıza aşiq olur. Şəhriyar onu Pəri deyə çağırırdı. Sürəyyanı eyni vaxtda şahın əmisi oğlu Əbdülhüseyn Teymurtaş da sevirdi. Qızın imkanlı qohumları və şahın əmisi oğlu Şəhriyara təzyiqlər edərək onu 1932-ci ildə universitetin son kursundan Nişapura sürgün etdirirlər. Beləliklə, Şəhriyar ali təhsilini yarımçıq qoyub, bir müddət İranın müxtəlif şəhərlərində, o cümlədən də Məşhəddə yerli idarələrdə məmurluğa başlayır. 30-cu illərin ortalarında Tehrana qayıdıb banklardan birinə işə düzəlir. Sürgündən qayıdandan sonra həm də şairlər məclisi düzəldir. Məclisdə yeni yaradıcılıq nümunələri, yazılmış poemalar, şeirlər oxunub müzakirə olunurdu. Ustad Şəhriyarın həyatı haqqında maraqlı faktlara və təbrizlilərin rəvayətlərinə görə, şeir məclislərində Sürəyyanın qohumları şairlərə xidmət göstərən, onlara çay, qəhvə və yemək verən xidmətçiyə Şəhriyarın və onun iki yaxın dostunun qəhvəyə zəhər qatmaqla öldürülmələrini əmr edirlər. Şəhriyarın iki dostu zəhərlənib ölür. Deyilənlərə görə, bu xəbəri alan Kövkəb xanım həmin xidmətçinin evinə gedərək, çadrasını açıb, onun ayaqlarına atır və xahiş edir ki, oğlunu zəhərləməsin. Xidmətçi Kövkəb xanıma söz verir və sözünü tutur.

Ustadın həyatını araşdırarkən çoxsaylı maraqlı faktlarla rastlaşmaq mümkündür. Tehranda yaşayarkən uşaqlıq dostlarından biri 1949-cu ildə ağır xəstələnib yatağa düşür. Xahiş edir ki, ölsəm, dostluğumuz naminə ailəmdən, uşaqlarımdan muğayat olarsan. Yazdığı vəsiyyətnaməni də vəfatından sonra həyat yoldaşına çatdırmaq üçün verir. Qadın məktubu oxuduqda Təbrizdə ibtidai






***ŞƏHRİYAR DOĞULUB BOYA-BAŞA ÇATDIĞI ÖLKƏDƏ MÖVCUD POETİK ƏNƏNƏLƏRƏ VƏ ALDIĞI TƏHSİLƏ UYĞUN OLARAQ ƏSƏRLƏRİNİN ÇOXUNU FARS DİLİNDƏ YAZMIŞDIR. ELƏ BİR BƏDİİ İRS QOYUB GETMİŞDİR Kİ, ƏSRİMİZİN İRAN ƏDƏBİYYATI TARİXİ ONUN YARADICILIĞI OLMADAN NATAMAM GÖRÜNƏRDİ***

məktəbdə dərs deyən ortancıl qızı Əzizə ilə ailə qurması barədə ərinin vəsiyyətini çatdırır. Şəhriyar 1953-cü ildə Əzizə xanımla evlənir. Onların iki qızı və bir oğlu dünyaya gəlir. Qızları Şəhrizad və Məryəm ev xanımlarıdır, oğlu Hadi isə hazırda atasının ev muzeyində çalışır.

Şəhriyar və ailəsi uzun illər boyu maddi sıxıntılar içində yaşayıb. Ustadın tədqiqatçılarından olan şairə Hökumə xanım Billuri öz monoqrafiyasında onun Tehran qəzetlərinin birinə verdiyi müsahibənin mətnini dərc etmişdir. Müsahibədə deyilir: "Mən illərdir ki, yalnız çox vacib olduqda evdən çıxıram. Mənim hər şeyim bu bir otaqda yerləşmişdir. Gördüyünüz kimi, onun bəzəyi ancaq sadəlikdir... Üç uşağımla burada yaşayıram. 22 il bundan əvvəl aldığım paltarı hələ də təzələməmişəm". Bu sözlər ustadın dilindən çıxan gileylərdir.

Təbrizdə onun vaxtilə yaşadığı evi, indi isə ev muzeyini gəzdikcə şairin zamanında söylədiyi sözlərin gerçəkliyi ilə baş-başa qalırsan və anlayırsan ki, həyatının bütün sıxıntıları sanki, ustadın çöhrəsinə çökmüş və dərin iz buraxmışdır.

Gənclik çağlarından başlayaraq həyatı maddi məhrumiyyətlər içərisində keçdiyindən, xüsusən sürgün illərində çəkdiyi ağır fiziki və mənəvi əzablar üzündən dəfələrlə xəstələnib, öz evində və xəstəxanalarda müalicə olunub. Şəhriyar 18 sentyabr 1988-ci ildə Tehranda "Mehr" xəstəxanasının 513-cü palatasında ağciyər iltihabı və ürək çatışmazlığından vəfat etmişdir. Xəstəxanada yatarkən yanına gələn ölkənin ali lideri Xamenei ondan nə istədiyini soruşur. Deyilənlərə görə, Şəhriyar xahiş edir ki, Təbrizin, Xoşginabın, Şənginabın və Heydərbabanın ətrafına asfalt salınsın və elektriklə çıraqban olunsun. Bir də öləndən sonra onu Təbrizdə "Şairlər məqbərəsi"ndə dəfn etsinlər. Vəsiyyətinə əsasən, şairin cənazəsi Təbrizə gətirilir və Surxabdakı məşhur "Şairlər məqbərəsi"ndə torpağa tapşırılır. Həmin gün şəhərdə bütün dükan-bazar bağlanmış, şairin dəfn mərasimi ümumxalq matəminə çevrilmişdir. Ustadın hüzr mərasimi 1465-ci ildə Qaraqoyunlular dövründə Cahan şah Həqiqi tərəfindən tikilmiş Göy Məsciddə keçirilib. Cahan şah məscidi Təbrizin gözəl memarlıq abidələrindən biridir - el arasında Məscidi Cahan adlandırılır. Şəhriyarın qəbri üstündə möhtəşəm bir məqbərə tikilib. Burada eyni zamanda İran xalqlarının mədəniyyət tarixini nümayiş etdirən gözəl muzey də yaradılıb. Məqbərəni seyr edərkən qonaqlar Şəhriyarın öz abidəsi ilə yanaşı Azərbaycan Respublikası hökumətinin Bakıdan hədiyyə göndərdiyi Nizami Gəncəvinin heykəlini də görürlər.

Şəhriyar doğulub boya-başa çatdığı ölkədə mövcud poetik ənənələrə və aldığı təhsilə uyğun olaraq əsərlərinin çoxunu fars dilində yazmışdır. Elə bir bədii irs qoyub getmişdir ki, əsrimizin İran ədəbiyyatı tarixi onun yaradıcılığı olmadan natamam görünərdi.

Ustad klassik şeirin demək olar ki, bütün şəkillərində yazmış, ədəbiyyatı yüksək məzmunlu mükəmməl qəzəl, qəsidə, məsnəvi, qitə və rübailərlə zənginləşdirmişdir. Lirikası qəzəl dahisi Hafiz Şirazidən sonra keçən 700 il ərzində İranda lirikanın ən yüksək pilləsi sayılır. Dərin fikirlərlə zəngin, incə duyğular tərənnüm edən qəzəlləri, Təbrizdə uşaqdan-böyüyə çoxlarının dilində əzbərdir. İlk məhəbbət oxunun daşa dəyməsi, özünün dediyi kimi, onu Şəhriyar etmişdir.

Şəhriyarın əsərlərində ictimai motivlər geniş yer tutur. Şairin od-alov saçan beytlərində İranda şahlıq rejiminin rəzalətləri göstərilir.

Ustad yaradıcılığında məsnəvi janrına geniş yer vermişdir. "Elm və Hikmət", "Kəmalülmülkün ziyarəti" məsnəvilərində o, yaradıcı ziyalıların istedadlı rəssam, şair və alimlərin acınacaqlı taleyindən bəhs etmiş, xalqa başucalığı gətirən özü kimi böyük zəka sahiblərinin yaddaqalan canlı obrazlarını yaratmışdır. "Gecənin əfsanəsi",

“Qardaşım oğlu Hüşəngə”, “Eynşteynə müraciət” əsərləri fəlsəfi səciyyə daşıyır. Bu əsərlərində şair təkcə öz el-obasının, vətəninin və xalqının yox, bütün dünyanın taleyi üçün mənəvi məsuliyyət daşıyan qüdrətli bir sənətkar kimi çıxış edir.

Şəhriyarın doğma ana dilində yazdığı əsərlər yaradıcılığının bizim üçün xüsusilə qiymətli olan tərkib hissələrindən biridir. Azərbaycan türkcəsində ilk əsəri “Heydərbabaya salam” poemasıdır. Əsərin 1-ci hissəsinin 1952-53-cü illərdə Tehranda yazıldığı, Təbrizdə tamamlandığı güman olunur. Əsər 1965-ci ildə Türkiyədə və 1966-cı ildə Bakıda işıq üzü görüb.

“Heydərbabaya salam” ustad şairin yaradıcılığında dönüş nöqtəsidir. Qeyd edək ki, Heydərbaba Təbriz yaxınlığındakı Xoşginab kəndinin yanında dağ adıdır.

“Heydərbabaya salam” Azərbaycan poeziyasında ən çox sevilən və əzbərlənən əsərlərdən biri olmaqla, öz dövr şeirsevərlərinin və sonrakı nəsillərin yaddaşında xüsusi yer alıb. Poema ilk sətirlərindən sadə insanların danışdığı tərzdə, şirin Təbriz ləhcəsində gedən söhbət təsiri bağışlamaqla Şəhriyar qələminin qeyri-adi hiss-həyəcan yaratmaq gücünü nümayiş etdirir.

Deyilənlərə görə, əsər Kövkəb xanımın oğluna “nə yazdığını bilmirəm, mənim başa düşmədiyim dildə yazırsan” sözlərindən sonra yaranıb. Bir gün anası Şəhriyara deyir: “Oğlum, analar dilsiz uşaqlarını belə, dilindən anlayırlar. Sən şeirlərini hansı dildə yazırsan ki, mən onlardan bir şey anlamıram?”. Doğma anasının bu sözləri şairi sanki yuxudan oyadır. Şair özü etiraf edir ki, “Heydərbabaya salam” əsərini yazana qədər elə bil ürəyimdə bir tikan ilişib qalmışdı. Nədən yazsam da, necə yazsam da bu tikan çıxmırdı ki, çıxmırdı.

Bu poema Şəhriyara böyük şöhrət gətirdi. Əsər eyni zamanda Cənubi Azərbaycanda anadilli ədəbiyyatın, xüsusilə şeirin inkişafına geniş yol açdı.

“Heydərbabaya salam” müəllifin göz açıb gördüyü doğma ellər, Cənubi Azərbaycan haqqında, milli həyatımız, məişətimiz barədə vüsətli bir şairanə ensiklopediyadır. İllər boyu doğma yerlərdən, əziz adamlardan ayrı düşmüş şair Heydərbaba mühiti barəsində ürəyinin başında gəzdirdiyi, düşünüb-daşındığı mətləbləri yüksək dərəcədə təbii və zərif boyalarla tərənnüm edib. Əsər bilavasitə təbiətin böyük, əzəmətli dağına müraciət şəklində qurulub. Azərbaycan folklorunda, aşıq ədəbiyyatında, klassik və çağdaş poeziyamızda dağlara müraciətlə deyilmiş və yazılmış yüzlərlə poetik nümunə mövcuddur. Ustad dağa müraciətini belə qiymətləndirir: “Dağ göylərə yaxındır, təbiətin şah əsərlərindən biridir. Dağ tarixin əbədi görən açıq gözüdür. Vətəndə baş verən hadisələri seyr edərək öz sinə dəftərinə yazır. Şairin göylərə qalxan nalələrini əks etdirib bütün yer üzünə yayaraq hamının qulağına çatdırmağı təkcə o bacarır”. Şəhriyarın dağa üz tutaraq söylədiyi dərdi oxuduqca illərcə çəkdiyi vətən həsrəti gözümüz qarşısında canlanır:

*Heydərbaba, səni vətən bilmişdim,*
*Vətən deyib, baş götürüb gəlmişdim,*
*Səni görüb göz yaşımı silmişdim,*
*Halbuki, lap qəmli qürbət səndəymiş,*
*Qara zindan, acı şərbət səndəymiş.*

Poemada Xoşginabın dağətəyi kəndlərinin təbiəti çox əlvan və zəngin boyalarla çəkilib. Təsvirlər o qədər təbii və oynaqdır ki, oxucu ildırımların gurultusunu, sel-suların şaqqıltısını eşidir, təzə-tər çiçəklərin, otların ətrini duyur. Azərbaycanın təsərrüfat həyatı, xalqın adət və ənənələri, toyu-yası, ayin və mərasimlər elə incəliklə verilir ki, onların əsasında cənub ellərində yaşayan soydaşlarımızın gün-güzəranı, etnoqrafiyası haqqında çox zəngin bədii məlumat almaq mümkündür. Poemanın mühüm məziyyətlərindən biri xalqın gələcəyinə inam duyğusunun yüksək poetik ifadəsi ilə bağlıdır.

*Heydərbaba, mərd oğullar doğginən,*
*Namərdlərin burunların ovginən,*
*Gədiklərdə qurdları tut, boğginən,*
*Qoy quzular ayın-şayın otlasın....*

Oxucu əsərdə ilin bir-birindən gözəl fəsillərini, bu fəsillərin yer üzünə gətirdiyi əlvan lövhələri görür, yamaclarda əkinin-biçinin, bağın-bostanın gözəlliyinə tamaşa edir, bir parça çörək üçün əlləşib-vuruşan insanların təkrarsız mənəvi aləminə dalır, elin-obanın toy-bayramına, dərdli-matəmli günlərinə qiyabi də olsa qatılır.

*Səhər tezdən naxırçılar gələrdi,*
*Qoyun-quzu dam-bacadan mələrdi,*
*Əmməcanım körpələrin bələrdi,*
*Təndirlərin qavzanardı tüstüsü,*
*Çörəklərin gözəl iyi, istisi.*

“Heydərbabaya salam”ın əhəmiyyəti təkcə adət-ənənələrin, mərasimlərin, təbiət hadisələrinin zəngin boyalarla canlandırılmasından ibarət deyil. İkiyə bölünmüş xalqın tarixi taleyi, Azərbaycanın başına gələn böyük faciələr, sarsıdıcı ictimai hadisələr də şairin diqqətindən yayınmamışdır.

*Heydərbaba göylər bütün dumandı,*
*Günlərimiz bir-birindən yamandı.*
*Bir-birizdən ayrılmayın amandı!*
*Yaxşılığı əlimizdən alıblar,*
*Yaxşı bizi yaman günə salıblar.*

**ŞƏHRİYARIN YAŞADIĞI EVİN GÖZƏL BAĞÇASI OLUB Kİ, O, ŞEİRLƏRİNİN BİR ÇOXUNU HƏYƏTİNDƏ AĞAC KÖLGƏSİNDƏ QƏLƏMƏ ALIB. ŞƏHRİYAR HƏM DƏ XƏTTAT OLUB, ONUN QƏLƏMƏ ALDIĞI ƏLYAZMALARI MUZEYDƏ QORUNUB SAXLANILIR**



***Heydərbaba, mərd oğullar doğginən,***
***Namərdlərin burunların ovginən,***
***Gədiklərdə qurdları tut, boğginən,***
***Qoy quzular ayın-şayın otlasın....***





Bu misralar artıq bir kəndin, bir obanın dərdləri çərçivəsini aşır və ikiyə parçalanmış Azərbaycanın böyük faciəsini əks etdirir.

Türkcə şeirlərinə xas kövrəklik, nisgil, səmimilik, dil, divan ədəbiyyatı və xalq ədəbiyyatının sintezindən doğan ləngərli axıcılıq onu hər kəsdən fərqləndirir.

Şairin xalqın məhəbbətini qazanan ilk şeirlər kitabı 1931-ci ildə Tehranda nəşr olunub. İdrak və zövq mənbəyi olan əsərləri o taylı-bu taylı ədəbiyyatımıza çox böyük dəyər verib. Bədii irsi, o cümlədən də ana dilində yazılmış əsərləri Azərbaycan poeziyasının xalq həyatı ilə qaynayıb qarışmasında, ədəbi dilimizin zənginliyində müstəsna rol oynayıb.

Ustadın hansı şeirini oxuyuruqsa qəlbimizdə aydın oyanışlar yaranır, inam hissimiz qüvvətlənir. “Azərbaycan” şeirində vətən həsrətli nisgili özünün son dərəcə parlaq təsvirini tapmışdır. Şeir sanki o taylı-bu taylı Azərbaycanın yaralı qəlbindən qopan ah-nalədir.

*Könlüm quşu qanad çalmaz sənsiz bir an, Azərbaycan*
*Xoş günlərin getmir müdam xəyalımdan, Azərbaycan.*
*Şəhriyarın ürəyi də səninkitək yaralıdır,*
*Azadlıqdır mənə məlhəm, sənə dərman, Azərbaycan!*

“Türkün dilitək sevgili, istəkli dil olmaz” deyən şair ana dilimizi sonsuz məhəbbətlə sevmiş, dilimizin zənginliklərinə dərindən bələd olmuşdur. Şeirdə belə bir kəlam var: “Şair ola bilməzsən, anan doğmasa şair...” Bununla o, şair üçün həyat təcrübəsinin və təhsilin məna və əhəmiyyətini azaltmadan demək istəyir ki, şairlik hər şeydən əvvəl istedadın bəhrəsi, istedad isə Allahın vergisidir.

Şəhriyarın anadilli şeirləri arasında Bakıdakı qələm dostlarına yazdığı mənzum məktublar geniş yer tutur. “El bülbülü”, “Döyünmə, söyünmə”, “Qafqazlı qardaşlar ilə görüş”, “Gözüm aydın” və s. əsərlərində Bakı həsrəti, Şimali Azərbaycandakı qardaşları ilə görüşüb onları bağrına basmaq arzusu öz güclü ifadəsini tapmışdır. Şəhriyar uzun illər boyu Şimali Azərbaycan və Bakı həsrəti ilə qovrulsa da, keçmiş Sovetlər İttifaqı ilə keçmiş şahlıq İranı arasındakı sərhədlər, tanınmış xalq xadimləri üçün qoyulmuş qadağaların sərtliyi, maddi çətinliklər bu arzunun gerçəkləşməsinə imkan verməmişdir. Hətta bir dəfə Bakı səfəri haqqında Şəhriyara vəd verilmiş, vaxtında ünvanına gedib çatmayan dəvətnamə də göndərilmişdir. Lakin çox təəssüflər olsun ki, səfər baş tutmamış, ustadın arzusu gözündə qalmışdır.

Ustad Şimali Azərbaycanla görüşə bilməsə də, quzeydə “Heydərbaba”dan təsirlənərək bir çox şairlər zaman-zaman böyük

Şəhriyara ithaf, təxmis, nəzirə və xatirə şeirləri yazaraq şairə dərin sevgi və ehtiramlarını ifadə ediblər. Beləcə Şəhriyar ikiyə bölünmüş Azərbaycanın birlik, mənəvi bütövlük simvoluna çevrilib.

Şəhriyar uzun müddət cənub mövzusunda cənublulardan da yanıqlı yazmış, şimalda cənub həsrətini və problemini ədəbiyyat səhifələrində işıqlandırmış, Təbriz həsrətli Süleyman Rüstəmlə məktublaşmışdır. Ayrılıq dərdini, qovuşmaq həsrətini illərlə qəlbində yaşadan qocaman şairin ən ümdə, lakin reallaşmayan arzusu o taylı qələm dostu ilə görüşmək, dərdləşmək idi. "Şair qardaşıma məktub" şeirində Süleyman Rüstəm bu görüşün baş tutmamasından gileylənir, yaxın yolun uzadılmasından şikayət edirsə də, ümidini gələcək nəslə bağlayıb deyirdi:

*Beşikdəki qış yuxulu körpələr,*
*Dodaqları süd qoxulu körpələr,*
*Babaları dağdan ulu körpələr,*
*Bizi əvəz edəcəklər, Şəhriyar,*
*Yolumuzla gedəcəklər, Şəhriyar.*

Azərbaycanın xalq şairi B.Vahabzadənin 1965-ci ildə yazdığı "Şəhriyara" adlı şeirini oxuyaraq düşünürsən: nə qədər ki, könüllərdən ayrılıq qubarı silinməyib, Qarabağ erməni qəsbkarlarının əlindədir və düşməndən qisasımız alınmayıb, Şəhriyara üz tutub dərdləşən söz ustadlarımız çox olacaq, bu dərdləşmələrlə ilgili araşdırmalar, şairin geniş yaradıcılığının tədqiqatdan kənar qalmış məqamlarının açıqlığa qovuşdurulması prosesi davam edəcək.

Xalqın, millətin milli siması, koloriti təkcə Şəhriyarın zahiri görünüşündə, libasında, hərəkət və davranışında, əməyində, zəhmətsevərliyində ifadə olunmur. O bütövlükdə gerçəyi anlamaq, duymaq və dərk etmək iqtidarına malik idi. Şair xalqın ruhunu, qan yaddaşını, milli-mənəvi koloriti, tarixi gerçəkliyi incəliklərinə qədər ana dilində ədəbiyyata və poeziyaya gətirmişdir.

Bu gün biz inamla yaza bilərik ki, Şəhriyarın idrak və zövq mənbəyi əsərləri, eləcə də dönə-dönə yüksək qiymətləndirdiyi sənət bahadırlarının təkrarsız irsi olmasaydı, dünya nə qədər solğun, insanlar mənən nə qədər yoxsul və miskin görünərdi! Sərhədlərin açılmasında "Heydərbabaya salam" və "Aman ayrılıq" hayqıran Şəhriyarın tarixi xidmətləri hər bir diplomatın, silahlı qüvvənin xidmətləri ilə müqayisədə ölçüyəgəlməz dərəcədə böyükdür.

Oğuz coğrafiyasında türk dilinin böyük şairi ustad Şəhriyarın ölümü bütün o taylı -bu taylı Azərbaycanı, türk dünyasını dərindən sarsıtmışdı.

Şəhriyarın vəfat tarixi, dediyimiz kimi, 1988-ci ilin 18 sentyabrıdır. 18 Sentyabr İranda (İran Azərbaycanında) "Milli şeir günü" kimi qeyd edilir. Digər tərəfdən 18 sentyabr Azərbaycan Respublikasında "Milli musiqi günü"dür. Dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin doğum günü ilə əlaqədar, iki Azərbaycanda ilin eyni günündə iki məşhur şəxsimizlə bağlı iki müxtəlif milli gün müxtəlif şəkildə bayram edilir, ayrı-ayrı tədbirlər təşkil edilir. Bu, eyniliyimizin və eyni zamanda mədəni ruhumuzun birgəliyinin daha bir nümayişi deyilmi?

Böyük şairin vaxtilə yaşadığı ev hazırda coşqu ilə ziyarət edilən muzeyə çevrilib. Muzey bir neçə otaqdan ibarətdir. Burada böyük söz adamından yadigar qalan 500-dən çox eksponat nümayiş olunur. Onların arasında şairin geyindiyi ayaqqabı və paltarları, istifadə etdiyi əl çantası, qələmi, saatı və bir çox əşyalar yer tutur. Şairin şəxsi əşyaları ilə yanaşı, muzeydə Azərbaycandan hədiyyə olunmuş eksponatlar da nümayiş olunur. Onların arasında xalq çalğı alətimiz kamança, dahi şair Nizaminin əksi təsvir edilmiş boşqab, 1964-cü ildə Bakıda "Yazıçı" nəşriyyatı tərəfindən nəşr olunmuş "Aman ayrılıq" poeması və şeirlər kitabı, 15 fevral 2013-cü ildə azərbaycanlı memar Zeynallı Zərnaz tərəfindən hədiyyə olunmuş şairin rəsm tablosu da var.

Şəhriyarın yaşadığı evin gözəl bağçası olub ki, o şeirlərinin bir çoxunu həyətində ağac kölgəsində qələmə alıb. Şəhriyar həm də xəttat olub, onun qələmə aldığı əlyazmaları muzeydə qorunub saxlanılır. Muzeyi seyr edərkən insanda başqa bir zövq və nostalji hissləri baş qaldırır. Nəinki muzey, bütövlükdə Təbriz bizlər üçün tarixdə olduğu kimi, indi də çox böyük dəyər və anlam daşıyıcısıdır. Çünki bizi bir araya gətirən çoxlu ortaq dəyərlərə malikdir. Bu dəyərlərə milli, dini, mədəni, ədəbi və tarixi meyarlar daxildir. Ədəbi meyarlar içərisində dünya şöhrəti qazanan Ustad Şəhriyar bütöv Azərbaycanın sevimlisi və fəxridir.

İranın Şərqi Azərbaycan əyalətində yerləşən Eynalı dağında qaya üzərində Məhəmmədhüseyn Şəhriyarın hündürlüyü 10 metr olan heykəli ucaldılmışdır. Təbriz şəhəri Eynalı dağının ətəyində yerləşir və təbrizlilər hər cümə istirahətlərini bu dağın ətəyində keçirirlər. Məhəmmədhüseyn Şəhriyarın Eynalı dağında daşlaşmış büstü öz əzəməti ilə təbrizliləri və Təbrizə gələn qonaqları daima salamlayır. ❖

**XALQIN, MİLLƏTİN MİLLİ SİMASI, KOLORİTİ TƏKCƏ ŞƏHRİYARIN ZAHİRİ GÖRÜNÜŞÜNDƏ, LİBASINDA, HƏRƏKƏT VƏ DAVRANIŞINDA, ƏMƏYİNDƏ, ZƏHMƏTSEVƏRLİYİNDƏ İFADƏ OLUNMUR. O BÜTÖVLÜKDƏ GERÇƏYİ ANLAMAQ, DUYMAQ VƏ DƏRK ETMƏK İQTİDARINA MALİK İDİ**

**Nəzakət Rəhmanova**
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə
Elmi-Metodiki və İxtisasartırma Mərkəzi
Təlim-tədris şöbəsinin müdiri
E-mail: naza_raxmanova@mail.ru